## İnformasiya Texnologiyaları Departamenti/Sistemlərin İnkişafı və İdarəedilməsi Şöbəsinin Müdiri

Tələblər:

- Ali təhsil (Texniki sahə üzrə);
- 5 il İT sahəsi üzrə iş stajı;
- İngilis dili bilikləri olanlara üstünlük verilir;
- İT infrastrukturun iş prinsiplərini bilməli;
- Həm fərdi, həm qrup şəklində işləmək, təhlil etmə, hesabat vermə və problemləri müstəqil həll etmə bacarığı;
- Liderlik qabiliyyəti, ünsiyyət və komandada işləmək bacarıqları;

İş öhdəlikləri:

- Şöbənin fəaliyyətinin "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu və qüvvədə olan digər normativ hüquqi aktlarının tələblərinə uyğun aparılmasını riayət etmək;
- Şöbənin fəaliyyətinə rəhbərlik etmək, həmçinin onun planlamasını, təşkilini və nəzarətini aparır; inkişaf istiqamətlərini proqnozlaşdırmaq;
- Şöbənin illik büdcəsinin layihəsini hazırlanmasında, aidiyyatı struktur bölməsinə təqdim edilməsində iştirak etmək;
- İllik büdcə və digər hədəflərin icrası ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirmək;
- Şöbənin əməkdaşlarının vəzifə təlimatlarını və onlara əlavə və dəyişiklikləri hazırlamaq, tanış olunması üçün struktur bölmə rəhbərinə təqdim etmək, işçilər arasında səlahiyyət bölgüsünü aparmaq;
- Şöbənin işçilərinin qanunvericiliklə və bankdaxili reqlamentlərlə tanış olmalarını və riayət etmələrini təmin etmək;
- Şöbənin fəaliyyəti ilə əlaqədar normativ sənədləri, reqlamentləri, habelə onlara əlavə və dəyişikliklər layihəsini hazırlamaq və təsdiq olunması üçün təqdim etmək;
- Sistemlərin və infrastukturun daim əlçatan olmasını və dayanıqlı olmasını təmin etmək;
- Sistemlərin işinə nəzarət etmək və mütəmadi texniki baxışı təmin etmək;
- Şöbə heyəti arasında iş bölgüsünü, təlimlərin təmini və işçilərə nəzarət etmək;
- Avadanlıq və proqram təminatların lisenziyalaşdırılması işini təşkil etmək;
- Kənar şirkətləri cəlb edərək infrastruktur avadanlığının təmirini və dəstəyini təşkil etmək;
- İnformasiya sistemləri avadanlıqlarının modernləşdirmə planı məqsədilə kompüter texnologiyalarda yeniləmələri təqib etmək;
- İnformasiya sistemi avadanlığından suistimalını gördükdə və görülmüş tədbir barəsində birbaşa rəhbərinə məlumat vermək və məxfiliyi təmin etmək.

- Texniki tələblər:
  - Server, storage (SAN/NAS) və SAN Switch/Nexus şəbəkə avadanlıqlarının idarəedilməsi
  - WMware virtualizasiya (Vcenter/ Esxi/ vSAN/ VRS/ SRM) mühitinin idarəedilməsi
  - Active Directory/Mail Exchange/DNS/DHCP və və sair Windows funksiyalarının idarəedilməsində ekspert bilik və bacarıqlar
  - MS Windows və Linux serverlərinin idarəedilməsi
  - Replikasiya, Yedəkləmə, Disaster Recovery həlləri sahəsində bilik və təcrübə.
  - Avtomatlaşdırma bacarıqları, PowerShell/Python dillərində avtomatlaşdırma
  - Şəbəkə infrastrukturunun işləmə prinsipləri üzrə administrativ bilik və təcrübə.
  - Verilənlər bazası infrastrukturunun işləmə prinsipləri üzrə bilik və təcrübə.
  - İT layihə və proyektlərdə fəal iştirakçı təcrübəsi.

## Əlavə məlumat:

- Göstərilən tələblərə cavab verən namizədlər öz CV-lərini cv@asb.az elektron ünvanına göndərə bilərlər;
- Müraciət etdiyiniz vəzifənin adını email-in mövzu hissəsində **“Sistemlərin İnkişafı və İdarəedilməsi Şöbəsinin Müdiri”** göstərməyiniz xahiş olunur;